

### Qanunsuz cərimələrdən müdafiə

İntizamın pozulmasına görə, yəni, işçi ilə onun günahından ona qoyulmuş iş vəzifələrinin yerinə yetirilməməsi və ya lazımi qaydad yerinə yetirilməməsi ilə bağlı olaraq işverən intizam cərimələrini qoya bilər: məzəmmət; töhmət; müvafiq əsaslardan işdən azad etmə (RF ƏM 192-ci maddəsi).

### Özünü müdafiə etmə

İşçi öz hüquqlarını özü də müdafiə edə bilər.

İşverənin, işverənin nümayəndələrinin işçilərə onlar öz əmək hüquqlarını müdafiə etdikdə maneələr törətmək hüquqları yoxdur (RF ƏM 380-ci maddəsi).

İşçinin yazılı ərizəsinə uyğun olaraq işverən həmin ərizə verildiyi gündən ən uzağı uç iş günü ərzində işçiyə əmək kitabçasını, iş ilə bağlı sənədlərin surətlərini verməlidir (işə qəbul olunma haqqında əmrlərin surətlərini, başqa işə köçürmələr haqqında əmrlərin surətlərini, işdən azad olunma haqqında əmrin surətini; əmək kitabçasından çıxarışları; əmək haqqı haqqında arayışları, məcburi pensiya sığortası ilə bağlı əlavə edilmiş və faktiki olaraq ödənişmiş sığorta ödənişləri haqqında arayışları, həmin işverəndə iş müddəti haqqında arayışları və s. (RF ƏM 62-ci maddəsi).

### Həmkarlar ittifaqından kömək

Hər bir işçinin həmkarlar ittifaqına daxil olmaq, hüquqlarını müdafiə etdikdə onun köməyindən istifadə etmək hüququ var.

### Əmək qanunvericiliyinin riayət edilməsinə dövlət nəzarəti

Əmək qanunvericiliyinin və daxilində əmək hüquqları normaları olan başqa normativ hüquq aktlarının riayət edilməsinə federal dövlət nəzarəti Krım Respublikasının Əmək inspeksiyası tərəfindən həyata keçirilir (RF ƏM 353-cü maddəsi).

İşçinin ərizəsi əsasında Əmək inspeksiyası məhkəmədən kənar şəkildə işverəni əmək haqqı ilə bağlı borcları ödəməyə məcbur edə bilər (RF ƏM 360.1 maddəsi).

Prokurorluq işvərəni əmək haqqı ilə bağlı borcları ödəməyə məcbur edə bilər və işçinin mənefələrini müdafiə edərək məhkəmə iddiası ilə məhkəməyə müraciət edə bilər.

RF DİN Miqrasiya məsələləri üzrə İdarəsi işvərəni xarici ölkə vətəndaşlarının işə düzəldilməsində pozuntulara görə məsuliyyətə cəlb edə bilər. Əmək haqqı iki və ya daha çox ay ərzində ödənilmədiyi halda Siz RF İstintaq komitəsinə müraciət edə bilərsiniz: əmək haqqının ödənilməsinin uzunmüddətli gücikdirilməsi cinayət hesab edilir (RF Cinayət Məcəlləsinin 145.1 maddəsi).

### Məhkəmə müdafiəsi

İşçinin öz hüquqlarının pozulması haqqında bildiyi və ya biləcəyi gündən uç ay ərzində məhkəməyə öz fərdi mübahisəsinin həll olunması məqsədilə müraciət etmək hüququ var, işdən azad edilməsi sualları ilə bağlı mübahisələr üzrə isə — ona işdən azad edildiyi haqqında əmrin surətinin verilməsindən və ya əmək kitabçası ona verildiyi gündən və ya işçiyə onun işdən azad edilməsi ilə bağlı olaraq onun sonuncu iş yerindən iş fəaliyyəti haqqında məlumatların verilməsindən bir ay ərzində (RF ƏM 392-ci maddəsi).

### İŞ AXTARMA

**www.trudvsem.ru** — Rusiyada iş.

### Krım Respublikasında miqrasiya sahəsində xidmət verən müəssisə:

Krım Respublikasında və Sevastopol şəhərində
RF DİN «Pasport-viza xidmətinin»
Federal dövlət unitar müəssisənin filialı.
**Ünvan:** *295026, Krım Respublikası, Simferopol şəhəri, Kiyevskaya küçəsi, 86a*
**Telefon:** *+7 (3652) 66 94 04.*
**Elektron ünvan:** *krim@pvsmvd.ru*

ГОСУДАРСТВЕННЫЙ КОМИТЕТ
ПО ДЕЛАМ МЕЖНАЦИОНАЛЬНЫХ ОТНОШЕНИЙ
РЕСПУБЛИКИ КРЫМ

# KRIM RESPUBLİKASINA XOŞ GƏLMİSİNİZ!

## İşə düzəlmə və əmək hüquqlarının müdafiəsi

MIQRANTA KÖMƏK

**2021**

*Əgər Siz Rusiyaya qazanc məqsədi ilə gəlmisiniz, hüquqlarınızı və vəzifələrinizi bilmək çox vacibdir. Bu Sizə problemlərin qabağını almağa kömək olacaq.*

**Sadə məsləhətlərin yerinə yetirilməsi Sizə kömək edəcək:**

**qanuni olaraq işləyin:**

qeyri-qanuni iş — qanunun ciddi pozuntusu hesab olunur. Siz işləyirsinizsə, Sizin mütləq əmək və ya mülki-hüquqi müqaviləniz olmalıdır;

**huquqlarınızı bilin:** işverən Sizə müqavilənizin surətini verməlidir, həmin müqavilənin surətində işverənin imzası və möhürü olmalıdır, işverən Sizin əmək haqqınızı vaxtında verməlidir. Əmək müqaviləsi əsasında işləyərək, Sizin məzuniyyətə, istirahət günlərinə və xəstələndiyiniz halda ödənilmiş xidmətlərə hüququnuz var;

**işvərəninizi bilin:** Siz işlədiyiniz müəssisənin adını və ünvanını bilməlisiniz, rəhbərinizin əlaqələrini (soyadı, adı və telefonunu) bilməlisiniz;

**vasitəçilərə müraciət etməyin:** ehtiyatlı olun — vasitəçilər Sizi pulsuz iş gücü kimi istifadə edə bilərlər;

**əmək haqqının məbləği və ödəniş şərtlərini dəqiq müəyyən edin:** Siz Sizə hansı işə görə və hansı məbləğdə əmək haqqının ödənilməsi haqqında bilməlisiniz — bu Sizin müqavilənizdə göstərilməlidir. Pul vəsaitlərini Siz ya Sizin bank kartınıza, ya da mühasibdən almalısınız — şəxsən və imza etməklə. Sizin mühasibdən hesabat vərəqəsini almaq hüququnuz var.

Əgər Sizə pul borcludurlarsa — işvərəninizdən bu haqqda qəbz tələb edin və onu özünüzdə saxlayın;

**nəyi imzaladığınızı həmişə diqqətlə oxuyun, Sizə imzaladığınız sənədin surətinin verilməsini tələb edin:**

Əgər Siz sənədin məzmunu və şərtləri ilə razı deyilsinizsə, Sizin həmin sənədi imzalamamaq hüququnuz var.

Əgər sənəd şəxsən Sizə aiddirsə, Sizə sənədin surətini verməlidirlər.

**sənədlərinizi işverənə verməyin:** heç kəsin hüququ yoxdur ki, Sizin pasportunuzu, iş patentinizi, sığortanızı, Sizin əmək müqavilənizin surətini və ya başqa sənədləri alsın, Sizin hərəkətinizi məhdudlaşdırsın, telefonunuzu və s. alsın. Sizin pasportunuzu alıblarsa və ya Sizin hərəkətlərinizi məhdudlaşdırıblarsa — bu ciddi bir cinayətdir: bu halda hökmən polisə müraciət edin!

İşlədiyiniz növbələr və əmək haqqı haqqında gündəlikdə qeydləri edin, işvərəniniz və onun nümayəndələri ilə bütün danışıqları audio və video vasitəsilə yazın, Sizə möcvud olan və Sizin işinizlə bağlı bütün sənədlərin şəklini çəkin və onların surətlərini hazırlayın — bu məlumatlar Sizə gələcəkdə əmək mübahisələrində sözlərinizi sübut etməyə kömək edəcək, həmçinin, məhkəməyə müraciət etdiyiniz halda da;

**kömək üçün müraciət edin:** əgər işverən Sizin hüquqlarınızı pozursa, Sizə polis, prokurorluq, İnsan hüquqları üzrə vəkil edilmiş şəxs, əmək inspeksiyası, məhkəmə, ictimai müəssisələr kömək edə bilər.

## İşçinin əmək hüquqları RF Əmək Məcəlləsində göstərilib (RF ƏM)

### İşə düzəldikdə hüquqların müdafiəsi

Əmək müqaviləsini Sizə işə bağladığınız gündən ən çoxu 3 gün ərzində verməlidirlər. İşçini işə faktiki olaraq buraxdıqda işverən onunla əmək müqaviləsini yazılı şəkildə, işçini işə buraxdığı gündən ən çoxu uç iş günü ərzində bağlamalıdır (RF ƏM 67-ci maddəsi).

İşverən onunla beş gündən çox işləyən hər işçi üçün əmək kitabçasını doldurur, əgər həmin işverənin müəssisəsində iş həmin işçinin əsas iş yeridir (RF ƏM 66-cı maddəsi).

İşə qəbul işverənin əmri əsasında həyata keçirilir. İşçinin işə qəbul olunması haqqında əmrin surətini almaq hüququ var (RF ƏM 68-ci maddəsi).

İş gününün uzunluğu 8 saatdan çox olmalı deyil, iş həftəsinin uzunluğu — 40 saatdan. İş vaxtından artıq işə görə əlavə ödənişlər təyin olunur (FR ƏM 152-ci, 153-cü və 154-cü maddələrinə uyğun olaraq).

Əmək müqaviləsinə hökmən işçinin sosial sığortalanması haqqında şərtlər daxil olmalıdır — illik ödənişli məzuniyyət (28 iş günü), xəstəlik vərəqəsi (xəstəlik hallarında) və ilkin tibbi-sanitar yardım və təcili şəkildə xüsusiləşdirilmiş tibbi yardım (RF ƏM 115-ci, 183-cü, 327.2 maddələri).

**Tam iş günü şərtilə işləyən işçinin əmək haqqı MROT-dan (ƏHMM — əmək haqqının minimal məbləği) az ola bilməz. 2020-ci ilin 1 yanvar tarixinə etibarən Krım Respublikasında aylıq ƏHMM 12 130.00 rubl təşkil edir.**

### Qeyri-qanuni olaraq işdən azad edilmədən müdafiə

İşdən azad edilmə bundan qabaqkı iş müddətinə görə əmək haqqının ödənilməməsi üçün səbəb deyil.

Əmək müqaviləsinin müddəti sona çatdığı halda işverən işçiyə məxsus və işçi işdən azad edildiyi günə ona ödənilesi bütün ödənişləri onu işdən azad etdiyi gün ödəməlidir və ya işçinin həmin məbləğlərin ödənilməsi haqqında yazılı müraciətini alandan sonra növbəti günə ödəməlidir (RF ƏM 84.1, RF ƏM 140 maddələri).

Əmək müqaviləsi dayandırıldığı gün işverəm işçiyə onun əmək kitabçasını verməlidir və ya həmin işverəndə iş fəaliyyəti haqqında məlumatları verməlidir.

İşçini işdən azad etdikdə ona mütləq onun işdən adaz edilməsi haqqında əmr verilməlidir və işdən azad edilmə haqqında qeyd ilə əmək kitabçası da verilməlidir.

### Əmək haqqı gecikdirildiyi halda hüquqların müdafiəsi

Əmək haqqının ödənilməsi 15 gündən çox gecikdirilirsə, işçinin iş fəaliyyətini əmək haqqı ödənilənədək dayandırmaq hüququ var (RF ƏM 142-ci maddəsinin 2-ci hissəsi). İşçi həmin hal haqqında işverənə yazılı şəkildə məlumat verməlidir.

İşverən əmək haqqının ödənilməsinin gecikdirilməsinə və əmək fəaliyyətinin ödənilməsi ilə bağlı bütün başqa pozuntulara görə məsuliyyət daşıyır (RF ƏM 142-ci maddəsi).

**Bunu anlamaq vacibdir!** Hər hansı hallar, həyat vəziyyəti ilə bağlı olaraq işsiz, qeyri-qanuni halda qalan miqrant təbliğat altına düşə, ekstremistlər və terroristik müəssisələr tərəfindən cəlb oluna bilər.

İndiki zamanda başqa milliyyətli, başqa dini mənsubiyyətli şəslərə qarşı nifrətin və ya düşmənçiliyin oyandrılmasına, bundan başqa dövlət quruluşunun məcburi şəkildə dəyişdiilməsinə və ya onun zəbt edilməsinə yönəldilmiş ideologiya olan ekstremizmə müqavimət RF milli təhlükəsizliyinin təmin olunmasının ən mühüm istiqamətlərindən biridir.

Ekstremizmin müxtəlif təzahürlərinə görə RF-də həm inzibati, həm də vinayət məsuliyyəti nəzərdə tutulur.

Ekstremizmin və terrorizmin geri qaytarılmaz nəticələri ilə üz-üzə qalmamaq üçün kömək üçün tanışlarınıza və ya vasitəçilərə yox, məhz RF dövlət siyasətinin məsələlərinə və məqsədlərinə nail olmasına, onların formalanmasına, yerinə yetirilməsinə nəzarəti həyata keçirən dövlət müəssisələrinə müraciət edin.